**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NƏSİR NATİQ OĞLU MƏMMƏDOV**

# GENOSİD CİNAYƏTİNƏ GÖRƏ MƏSULİYYƏTİN NƏZƏRİ VƏ PRAKTİKİ PROBLEMLƏRİ

**İxtisas: 5603.01 - "Beynəlxalq hüquq; insan hüquqları"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunda yerinə yetirilmiş, geniş müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir.

**Elmi rəhbər:** **hüquq üzrə elmlər doktoru**
**A.İ.Mustafayeva**

**Rəsmi opponentlər:** **hüquq üzrə elmlər doktoru, professor**
**R.F.Məmmədov**
**hüquq üzrə fəlsəfə doktoru**
**Ə.V.Allahverdiyev**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilk Akademiyası**

Dissertasiya işinin müdafiəsi "_30___" "___11_________" 2016-cı il tarixdə saat "______" Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris binası, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "_____________" 2016-cı il tarixdə göndərilmişdir.

**FD.02.103 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.Məmmədov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Dünyanın məlum olan inkişaf tarixinin son dövrləri çoxlu sayda müharibə və münaqişələrlə yadda qalmaqdadır. Münaqişələrin artması insan hüquq və azadlıqlarının kütləvi, sistematik pozulması halları ilə müxtəlif növ beynəlxalq cinayətlərin miqyası da artmış, beynəlxalq birliyin cəhdlərinə baxmayaraq bəşəriyyəti cinayətlərdən xilas etmək mümkün olmamışdır. Dünyada baş verən cinayətlərin statistikası göstərir ki, bu fenomen getdikcə dövlətlərin mövcudluğuna, beynəlxalq sülhə və təhlükəsizliyə daha ciddi təhdidlər yaratmaqdadır. İkinci dünya müharibəsindən sonra millətçilik demək olar ki, rəsmi siyasi arenadan uzaqlaşsa da, genosid daha kütləv hal almışdır. BMT Təhlükəsizlik Şurasının hesabatları da bunu aydın sübut edir. Hesabatlara əsasən genosid cinayətinin Asiya, Afrika və Latın Amerikası ölkələrində xüsusilə geniş yayıldığını qeyd etmək mümkündür. Ən təhlükəli məqam isə ondan ibarətdir ki, bir çox hallarda genosid cinayətləri cəzasız qalır və ya ona beynəlxalq ictimaiyyət tərəfindən lazımi siyasi və hüquqi qiymət verilmir. Məsələn, 1992-ci ilin fevral ayında Xocalıda ermənilər tərəfindən törədilmiş qoyqırımı əsl genosid cinayət idi. Lakin bu cinayət bu gün cəzasız qalmışdır. Bu da ondan xəbər verir ki, üçüncü minillikdə genosid bütün dünya üçün, qlobal təhlükəsizlik və rifah üçün ən ciddi təhlükə olaraq qalmaqdadır. Ümumiyyətlə, genosid problemi ətrafında elmi-tədqiqat işlərinin aparılması hər şeydən öncə bu cinayətin təhlükəlilik səviyyəvi haqqında təsəvvürləri daha da dərinləşdirir və ona qarşı mübarizənin vacibliyini önə çəkir. Hesab edirik ki, tədqiqat mövzusunun aktuallığını ifadə edən ilkin məqamlardan biri məhz bundan ibarətdir.

BMT Nizamnaməsi "insan hüquqlarına inamı" təsdiqləməklə eyni zamanda, BMT özünün praktikasında insan hüquq və azadlıqlarının ciddi surətdə pozulmasını sülhə təhdid olmaqla beynəlxalq təhlükəsizlik məsələsi kimi qiymətləndirməkdədir. Xüsusən də, beynəlxalq cinayətlərdən daha ağırı və təhlükəlisi olan soyqırım, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri zamanı beynəlxalq birliyin məsuliyyət məsələsi kimi də təqdim edilməkdədir. Beynəlxalq hüquqa görə bütün dövlətlər insan hüquqları sahəsində beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına, o cümlədən bu sahədə beynəlxalq öhdəliklərə əməl etməyə borcludurlar». İnsan hüquqları sahəsində dövlətlərin öhdəlikləri tədqiq edilərkən haqlı olaraq qeyd edilir ki, insan hüquqları sahəsində beynəlxalq müqavilələrin xarakterik cəhəti onların nəinki iştirakçı-dövlətlər üçün, həmçinin üçüncü tərəf - fərdlər üçün hüquq və vəzifələr nəzərdə tutmasıdır. Beynəlxalq öhdəliklərin zəruri səviyyədə təmin



edilməməsi isə həm ayrı-ayrılıqda bu və ya digər şəxslərin, həm də müxtəlif etnik, sosial, dini və s. qrupların hüquqlarının pozulmasına şərait yaradır. Bu pozuntular baş verdikdə isə beynəlxalq birliyin ümumi maraq (*erqa omnes*) obyektinə qəsd meydana gəlir.

Əlavə olaraq dissertasiya mövzusunun aktuallığını həm də onunla əsaslandırmaq olar ki, müasir dünyamızda genosid kimi səciyyələndiriləcək ən müxtəlif siyasi praktikaların miqyası əhəmiyyətli dərəcədə genişlənmişdir. Dünya dövlətləri özlərinin geosiyasi prioritetlərinin reallaşdırılması zamanı əksər hallarda genosid elementlərinə malik olan fəaliyyət və ya davranış nümayiş etdirirlər. Belə ki, hazırda dünyanın bir sıra regionlarında təhlükəli münaqişə və müharibə ocaqları mövcud olmaqdadır. Müharibənin və münaqişənin mövcud olduğu halda genosid elementlərinə malik hadisələrin törədilməsi kifayət qədər realdır. Təsadüfi deyildir ki, genosid probleminin öyrənilməsi hər şeydən öncə müharibənin bəşər tarixindəki yerinin və rolunun öyrənilməsi ilə sıx əlaqəlidir. Müharibə tarix boyu insanın qarşılıqlı münasibətlərinin ayrılmaz bir hissəsi olmuşdur. Müharibənin gedişində isə genosid xarakterli halların baş verməsi müşahidə olunmuşdur. Müasir şəraitdə, daha dəqiqi, qloballaşma şəraitində genosid, siyasətin bir təzahürü kimi müxtəlif formalar almaqla daha mürəkkəb xarakterli olur. Miqyasının ciddi şəkildə genişlənməsi, qlobal xarakter alması ilə genosid "*hamının hamıya qarşı müharibəsinə*" çevrilə bilər. Bu baxımdan, genosid cinayətinin əlamətlərininin dəqiqliklə müəyyənləşdirilməsinə və bu halların proqnozlaşdırılmasına olduqca böyük ehtiyac vardır ki, bu da dissertasiya mövzusunun aktuallığını bir daha təsdiq edir.

Nəhayət, mövzunun tədqiqat obyekti kimi seçilməsində növbəti və əsas amil XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanın Rusiya tərəfindən işğalından sonra törədilən cinayətlərlə bağlıdır. Osmanlı dövlətinin 1918-ci ildə Azərbaycana yardımı olmasaydı mart ayında başlanan və ermənilər tərəfindən törədilən (yalnız Bakıda 12 min əhali ermənilər tərəfindən qətlə yetirilmişdir) soyqırım cinayəti (siyasəti) azərbaycanlıların tam məhvinə səbəb ola bilərdi. Rusiyanın formalaşdırdığı Sovetlər dövründə türk-müsəlman əhaliyə qarşı yalnız 1948, 1956 və 1988-ci illlərdə həyata keçirilən deportasiyalar nəticəsində 300 mindən çox azərbaycanlı əhali özünün tarixi torpaqlarından onlar üçün qeyri-əlverişli ərazilərə köçürülmüş, daha doğrusu sürgün edilmişdir.

Rusiyanın birbaşa dəstəyi ilə Ermənistan tərəfindən 1988-ci ildən başlayan və hal-hazırda da davam edən növbəti işğalçılıq siyasəti Azərbaycan Respublikasının (AR) ərazisinin 20 faizindən çoxunu (yəni 17.000 kv.km torpaq sahəsi) işğal etməsi və 1 milyondan çox azərbaycanlının öz

torpaqlarından didərgin düşməsilə nəticələnmişdir. Xocalı şəhərində soyqırım cinayətinin bütün elementləri, dəhşətləri həyata keçirilmişdir. Erməni-rus hərbi birləşmələrinin törətdiyi Xocalı soyqırımı adları bəlli olan 613 nəfərin, o cümlədən 106 qadının, 63 azyaşlı uşağın, 70 qocanın həyatına son qoymuş, 487 nəfər şikəst olmuş, 1275 dinc sakin əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür.

Baş vermiş bu cinayətin cəzalandırılması beynəlxalq müqavilələrə uyğun olaraq müvafiq qanunvericiliyin formalaşdırılmasını tələb edir. 1991-ci ilin sonundan AR dövlət müstəqilliyini bərpa etməklə beynəlxalq müqavilələrə qoşulmuşdur. AR qanunvericiliyi ilə beynəlxalq standartların uzlaşdırılmasını təmin etməli olan əsaslı hüquqi islahatlar cinayət qanunvericiliyini də əhatə etmişdir. AR-in yeni qəbul olunmuş Cinayət Məcəlləsinin (CM) «beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə əsaslanması» (m.1.2), beynəlxalq cinayətlərin tərkiblərinin CM-ə formasiya edilməsi, CM-in Xüsusi hissəsinin soyqırım, sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətlərini nəzərdə tutması və bu cinayətlərə görə yurisdiksiyanın müəyyən edilməsi qanunvericiliyin yeni inkişaf meylləri ilə bağlıdır.

Soyqırım cinayətinin qarşısının alınması və fərdi cinayət məsuliyyəti müəyyən edən beynəlxalq hüquq normaları nə qədər mütərəqqi inkişaf yolu keçsələr də daxili cinayət qanunvericiliyi olmadan onların səmərəli surətdə implementasiyası mümkün deyil. Beynəlxalq hüquq normaları bir qayda olaraq dövlətdaxili hüquq münasibətlərinin subyektləri üçün birbaşa hüquq və vəzifələr doğurmurlar. Ona görə də dövlətlər özlərinin cinayət-hüquqi münasibətləri üzrə beynəlxalq öhdəliklərinin icrası üçün lazımi qanunvericilik tədbirləri həyata keçirməlidirlər. Bu sahədə beynəlxalq sazişlərin əsas xarakterik cəhətlərindən biri də ondan ibarətdir ki, həmin sazişlər (məsələn, Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya) hər hansı əməlin cinayət xarakterini müəyyənləşdirsə də konkret cinayət-cəza tədbirlərinin (sanksiyanın) müəyyən edilməsi haqqında məsələni daxili qanunvericiliyin üzərinə qoyur.

**Mövzunun işlənilməsi dərəcəsi və nəzəri əsasları.** Genosidin lap qədim zamanlardan mövcud olmasına baxmayaraq, ona qarşı mübarizə son onilliklərdə aktuallıq kəsb etməyə başlamışdır. Müvafiq olaraq, elmi ədəbiyyatlarda genosidin kriminoloji, cinayət-hüquqi, siyasi, sosial-psixoloji və digər aspektləri, həmçinin, bu təhlükəli cinayət növünə qarşı səmərəli mübarizə aparılması problemlərinə kifayət qədər diqqət yetirilməmişdir. Qeyd edək ki, genosid problemi ətrafında elmi araşdırmalara əsasən ötən əsrin 60-70-ci illərindən başlanılmışdır. AR-də genosid problemi tarixi, siyasi və



hüquqi müstəvilərdə nəzərdən keçirilməkdədir. Bu da əsasən ermənilərin tarixən xalqımıza qarşı düşmən mövqeyində dayanması, tarixin ayrı-ayrı dövrlərində azərbaycanlılara qarşı soyqırımı töətmələri ilə bağlı olmuşdur. Məsələn, azərbaycanlı tədqiqatçılardan L.H.Hüseynovun, V.İ.İbayevin, A.N.Səfərovun, R.K.Məmmədovun, Ə.İ.Sadıqovun, Ş.T.Səmədovanın, S. Bədiyevin, E.Əhmədovun, Z.H.Əliyevin və başqaları elmi-tədqiqat işlərində genosidin krimininoloji, cinayət-hüquqi aspektlərinə diqqət yetirməklə yanaşı, ermənilərin davamlı olaraq xalqımıza qarşı həyata keçirdikləri soyqırımı cinayətlərinin tarixi, siyasi motviləri ətrafında kifayət qədər əhəmiyyətli tədqiqatlar aparmışlar və təhlillər etmişlər. Bu məsələyə həmçinin, Ermənistanın işğalçılıq siyasəti nəticəsində ölkəmizin cəlb olunduğu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin baş verməsi səbəbləri, xüsusiyyətləri, tənzimlənməsi prosesi və s. ətrafında həyata keçirilən genişmiqyaslı araşdırmalar zamanı da tədqiqat obyeklərindən biri kimi nəzərdə tutulmuşdur.

Genosid problemi Rusiya, Avropa və ABŞ tədqiqatçılarının daim ciddi diqqət mərkəzində olmuşdur. Son onilliklərdə bu istiqamətdə xüsusi fəallaşmanın müşahidə olunduğunu qeyd etmək mümkündür. Rusiyalı tədqiqatçılardan O.Vedernikova, V.Veliçko, D.Qavrilin, Q.Danilenko, Q.İqnatenko, N.Kostenko, D.Levin, İ.İ.Lukaşuk, İ.Fisenko və başqalarının əsərlərində həm də genosid cinayətinin mahiyyətinə, ona qarşı mübarizə problemlərinə də toxunulmuşdur. Bu məqamda xüsusi olaraq qeyd etmək lazımdır ki, rusiyalı tədqiqatçı V.Veliçko ermənilərin Qafqaz xalqlarına, xüsusilə də azərbaycanlılara qarşı törətdikləri cinayətlərdən geniş bəhs etmişdir. Qərb tədqiqatçılarından I.Brounlie, L.Cameroon, P.Christopher, S.Ratner, J.Duma, V.Fridman və başqaları genosid probleminin ayrı-ayrı aspektlərini tədqiq etmişlər.

**Tədqiqatın obyekti** qismində ümumilikdə genosid cinayətinə görə məsuliyyət problemi çıxış edir.

**Tədqiqatın predmetini** isə genosid cinayətinə görə məsuliyyətin nəzəri və praktiki tərəflərinin elmi araşdırılması təşkil edir.

**Tədqiqatın məqsədi** genosid cinayətinə görə məsuliyyətin nəzəri və praktiki problemlərini tədqiq edərək konkret elmi nəticələr əldə etməkdən ibarətdir.

Bu məqsədə nail olunması istiqamətində həll edilməli olan aşağıdakı **vəzifələr** müəyyən olunmuşdur:

– genosid cinayəti üzrə beynəlxalq hüquq normalarının həyata keçirilməsində dövlətdaxili cinayət qanunvericiliyinin funksiyasını əsaslandırmaq;

– beynəlxalq hüququn genosid cinayətinə görə cəzanı müəyyən

edən ümumtanınmış prinsiplərinin daxili cinayət qanunvericiliyində əks olunma səviyyəsini müəyyənləşdirmək;

– xarici dövlətlərin praktikası da nəzərə alınmaqla cinayət-hüquqi tənzimetmə sferasında genosid cinayətinə görə qanuvericilik yurisdiksiyasını müəyyən etmək;

– genosid cinayətində beynəlxalq məhkəmələrin yerişdiksiyasının əsaslarının tədqiq edilməsi;

– genosid cinayəti üçün müəyyən edilən anlayışı təhlil etmək;

– genosid cinayətində niyyət elementinin müəyyən edilməsi;

– genosid cinayətində dövlətin beynəlxalq hüquqi, şəxslərin isə fərdi cinayət məsuliyyətinin xarakterini müəyyən etmək;

– AR ərazisində erməni-hərbi birləşmələri tərəfindən həyata keçirilmiş soyqırım faktına beynəlxalq hüquq normaları kontekstində qiymət vermək;

– soyqırım cinayəti üzrə daxili cinayət qanunvericiliyinin beynəlxalq hüquqi öhdəliklərə uyğunlaşdırılması baxımından konkret təkliflər və tövsiyələr irəli sürmək.

**Tədqiqat işinin metodoloji əsasını** dialektikanın kateqoriya və prinsipləri, o cümlədən hüquq elmində hamılıqla qəbul olunan ümumnəzəri və xüsusi elmi metodlar təşkil edir. Dissertasiya işi nəzəriyyə və praktikanın qarşılıqlı əlaqəsini, tədqiqatın predmetini, məzmun və forması əks etdirən dialektik metodlara əsaslanır. Tədqiqat işində ümumi və xüsusi elmi-tədqiqat metodları: tarixi-hüquqi, müqayisəli-hüquqi, formal-məntiqi, sistem, konkret-sosioloji, statistik metodlardan istifadə edilmişdir.

**Tədqiqatın normativ əsasını** Nürnberq Beynəlxalq Hərbi Tribunalının Nizamnaməsi, Beynəlxalq Cinayət Məhkəməsinin Statutu (1998), Müharibə vaxtı mülki əhalinin müdafiəsi haqqında, Hərbi əsirlərlə davranış haqqında, Beynəlxalq silahlı münaqişələrin qurbanlarının müdafiəsi haqqında 12 avqust 1949-cu il Cenevrə Konvensiyaları, Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1948-ci il Konvensiyası, İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında 1950-ci il Avropa Konvensiyası, Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Paktı (1966), Yuqoslaviya və Ruanda beynəlxalq hərbi tribunallarının hökmləri, AR-in və d. dövlətlərin daxili qanunvericilik aktları təşkil edir.

**Tədqiqat işinin elmi yeniliyi** onunla əsaslandırıla bilər ki, genosid cinayətinə görə beynəlxalq-hüquqi məsuliyyətin müəyyən edilməsinin nəzəri və təcrübi problemlərinə dair məsələlər Azərbaycanın hüquq doktrinasında kompleks tədqiqat predmeti olmamışdır. Eyni zamanda, dissertasiya işi genosid cinayətinə görə hüquqi məsuliyyətin müəyyən edilməsində beynəlxalq hüquq



normaları ilə AR qanunvericiliyinin qarşılıqlı münasibətlərinin müəyyən edilməsi istiqamətində yeni yanaşmanı özündə ehtiva edir.

Tədqiqat işinin elmi yeniliyini özündə ifadə edən aşağıdakı **yeni elmi müddəalar** müdafiəyə təqdim olunur:

1. Genosid Konvensiyası qəbul edilərkən onun əsas məqsədi genosid cinayətinin əsas qurbanları olan qrupları müdafiə etmək üçün suveren dövlətə müdaxilə, onun işinə qarışmaq olmamışdır. Siyasi qrupların Konvensiyaya daxil edilməməsi onun çatışmazlığı kimi qiymətləndirilsə də, Konvensiyanın bu yolla tənzimetmə obyektinin genişləndirilməsi, ona əlavə elementlərin daxil edilməsi başqa problemlərin yaranmasına yol açardı. Konvensiyaya digər elementlərin daxil edilməsi diqqəti qrupu bütünlüklə və hissə-hissə məhv etmək kimi mühüm məsələdən yayındırardı. Siyasi qrupların daxil edilməsi isə daxili soyqırımlar həyata keçirilərkən beynəlxalq hüququn, xüsusilə Konvensiyanın fəaliyyətini məhdudlaşdırardı.
2. Genosid cinayətinin miqyasının müəyyən edilməsi ilə bağlı Genosid Konvensiyasının II maddəsinin dəqiq müəyyən edilməməsi sonrakı fəsillər üçün çətinlik yaratsa da, yarım əsrdən çoxdur ki, II maddə genosidin müəyyən olunmuş anlayışı, tərifi kimi qalır. II maddə iştirakçı dövlətlər tərəfindən demək olar ki, olduğu kimi implementasiya edilib. Lakin bununla belə, zaman keçdikcə beynəlxalq hüquq elminin inkişafı və beynəlxalq vəziyyətin dəyişməsi ilə əlaqədar olaraq genosid anlayışının təyinatı ilə bağlı dəyişikliklərin olacağı da istisna deyil. Xüsusən də, Konvensiyanın çatışmazlıqlarının həlli olaraq fiziki elementlərin bəzilərini ləğv etmək və müdafiə olunan qrupların dairəsini genişləndirməklə təkmilləşdirmələrə nail olmaq mümkündür. Bu mənada mütləq genosid konsepsiyası yoxdur. Mövcud konvensiya onun təkamüldə olan konsepsiyadır. Bu o deməkdir ki, mövcud konvensiyanın inkişaf etməsi ilə əlaqədar ola bilər ki, genosid anlayışına verilən təyinatda da dəyişikliklər olsun. Bura mədəni, siyasi elementlərin də daxil edilməsi insan qruplarının, son nəticədə isə insan hüquqlarının qorunması baxımından məqsədəmüvafiqdir.
3. Genosid anlayışına daha çox onun motivi və genosid törədənlərin sonda hansı aqibətlə üzləşmələri prizmasından yanaşmağı əsas götürmək, genosidi insanların dövlətin bürokratik aparatı tərəfindən struktur və sistemli şəkildə dağıdılması kimi xarakterizə etmək də ifadə edilə bilər. Həmçinin sosial yöndən baxdıqda da, genosid törədilə bilər. Lakin, burda fanatizm deyil, milli mədəniyyət genosid törədilməsi üçün şərt ola bilər. Bu tip sosial yöndə törədilən genosidlər əsasən repressiv cəmiyyətlərdə olur.
4. Cinayətin motivi şəxsdə cinayət törətmək qətiyyəti yaradan və onun tələbatları və maraqları ilə şərtləşən daxili niyyətdir. Hər bir motiv, yalnız

şüurda əks olunaraq konkret məqsədə nail olmaq səyi yaratdıqları halda, sövqedici amillər-motivlər kimi çıxış edir. Cinayətin məqsədi şəxsin konkret cinayəti törətməklə nail olmaq istədiyi gələcək nəticənin xəyali təsəvvürü, modelidir. Motiv və məqsəd sıx qarşılıqlı əlaqədə olur, çünki motivin formalaşması müəyyən bir məqsədin də qarşıya qoyulmasını nəzərdə tutur. Motiv subyekti məqsədə (niyyətə) doğru aparan hərəkətverici qüvvədir. Niyyəti digər ünsürdən, motivdən fərqləndirmək lazımdır. Niyyət motivdən fərqli anlayışdır. Əgər cinayəti törədən aktor qrupun bütöv və ya hissə-hissə məhv edilməsinə istiqamətlənibsə, bu genosid sayılır və burada motiv kimi torpaq müsadirəsi, milli təhlükəsizlik, ərazi bütövlüyü və s. maraqlar əsas götürülə bilər. "Niyyət" genosid cinayətinin anlayışında açar rolunu oynayır. Niyyət şəxs ittiham olunduğu halda keçərli bir elementdir. Müəyyən bir qrupa qarşı istiqamətlənmiş niyyət olduğu halda, belə qrupların necə müdafiə olunduğu, necə mövcudluğu müəyyənləşdirilir. Genosiddə kəmiyyət tələbləri də niyyətin başqa bir aspektidir. Genosidin xüsusi "texnikalar" ilə həyata keçirilməsi, genosid niyyəti sualını ortaya çıxaran məqamdır.

5. Genosid cinayətində motiv kimi milli, etnik, irqi, dini dözümsüzlük, düşmənçilik, nifrət çıxış edir və ideologiya səviyyəsinə qaldırılaraq son nəticədə cinayətin məqsədini müəyyən edir. Bu zaman cinayətin məqsədlərindən fərqli olaraq motiv tərkibin subyektiv tərəfi kimi məcburi əlamət kimi çıxış etmir.

6. Genosidi digər, məsələn, insanlıq əleyhinə cinayətdən fərqli edən əlamətlər soyun kəsilməsi niyyətinin və qrupun olmasıdır. Qrupa qarşı törədilmiş cinayəti genosid aktı kimi dəyərləndirərək, bunu insanlıq əleyhinə cinayət kimi hesab etmək olmaz. Çünki, insanlıq əleyhinə cinayətlər şəxslərə qarşı törədilir. Burada "şəxslər" dedikdə, onların hansısa xüsusi qrupa məxsus olması, vahid niyyət, motivin olması vurğulanmır. Lakin genosid aktında "şəxslərə" qarşı dedikdə, mütləq şəkildə milli, etnik, irqi, dini birliyinə görə xarakterizə olunan Kovensiya ilə müdafiə olunmuş qruplar nəzərdə tutulur.

7. Qrupun məhv edilməsi siyasətini həyata keçirmək üçün ilkin olaraq cinayəti törədənin fikrində xüsusi niyyət olmalıdır. Təbii ki, burada niyyət "məhv etmək niyyəti", yəni müdafiə olunmuş qruplardan bir üzvünün belə öldürülməsi "qrupu məhv etmə niyyətinin" göstəricisidir. Genosid cinayəti aktorunun qrupun məhvinə çalışdığı anda, qrup üzvlərinin həyat şəraitinin pozulmasına gətirib çıxaran, doğumun qarşısını almağa yönəlmiş qadağan edilmiş hərəkətlər qrupun məhv edilməsinə istiqamətlənmiş bir siyasətdir.

8. Konvensiyaya görə hər bir tərəf öz üzərinə bu cinayətin qarşısını almaq üzrə öhdəlik götürür, lakin bu öhdəlik qarşılıqlıq əsasında fəaliyyət



göstərən öhdəlik deyil. Bu öhdəlik digər tərəfin öhdəliyindən asılı olmayaraq fəaliyyət göstərir. Bu Konvensiya ilə bağlı münasibətlərdən dövlətlərin fərdi marağı düşünülə bilməz və burada hüquq və vəzifələr konkret tərəflər arasında olmadığı kimi qarşılıqlıq da əsas faktor deyil.

9. Qrupun məhv edilməsində qrupun mövcudluğu üçün mühüm şərtlərdən olan liderlər və ziyalıların məhv edilməsi niyyəti də bu cinayətdə mühüm əhəmiyyət kəsb edir. Genosid aktlarında yarımqrup kimi nəzərdən keçirilən birliklərdən biri siyasi liderlikdir. Liderliyi məhv etmək niyyəti ilə ona qarşı törədilən aktlar genosid hesab olunmalıdır. Liderlik aradan götürülürsə, qrup qismən məhv edilə bilər. Bu mənada Konvensiyada ifadə edilən "məhv etmə" fiziki və bioloji məhvdən də geniş götürülməlidir. Sosial varlıq kimi qrupun məhv edilməsi qrupun geniş kütlələrini aradan qaldırmadan qrup liderliyini məhv etmək niyyəti də genosid üçün kifayətdir.

10. Xocalı genosidi üzrə 2007-ci ildə Azərbaycan Respublikası Hərbi Prokurorluğu tərəfindən "Xocalı soyqırımı" ilə bağlı AR CM-nin 103-cü maddəsi üzrə başlanmış 64524 saylı cinayət işi davam etməkdədir. Məlum səbəblərdən bu cinayətin AR-in milli məhkəmə orqanları vasitəsilə hərtərəfli və tam təhqiqatı qeyri-mümkündür. Ən azından hazırda bunu milli məhkəmələr vasitəsilə həyata keçirmək real görünmür. Buna görə də yenə də beynəlxalq təşkilatlar vasitəsilə, xüsusən də BMT Baş Məclisinin xətti ilə ad hoc tribunalın təsis edilməsinə çalışmaq lazımdır. BMT Nizamnaməsinin 10 və 11-ci maddələrinə görə Baş Məclis beynəlxalq münasibətlərdə bütün məsələlər üzrə səlahiyyətlidir. BMT-nin əsas məqsədlərindən biri insan hüquqlarının qorunması olduğu üçün Baş Məclis də əsas orqan kimi ad hoc tribunalı təsis etmək səlahiyyətinə də malikdir. Baş Məclisin məhkəmə orqanı yaratmaq səlahiyyətini BMT Beynəlxalq Məhkəməsi də özünün 13 iyun 1954-cü il məsləhət xarakterli rəyi ilə təsdiqləmişdir.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** AR-in beynəlxalq hüquq elminin inkişafı, beynəlxalq cinayət hüquq normalarının daxili cinayət qanunvericiliyində implementasiyasının təkmilləşdirilməsi baxımından əhəmiyyətlidir. Dissertasiya işinin ayrı-ayrı müddəalarından oxşar mövzularda elmi-tədqiqat işləri aparan zaman istifadə oluna bilər.

Tədqitanın praktik əhəmiyyəti onun aktuallığını şərtləndirən faktlarla müəyyən edilir. Dissertasiya işində irəli sürülən arqumentlər, nəticə və tövsiyələr beynəlxalq cinayətlərə, o cümlədən soyqırım cinayətinə görə hüquqi məsuliyyətə gətirmə sahəsində hüquq mühafizə orqanlarının fəaliyyətinin istiqamətləndirilməsi baxımından əhəmiyyətlidir.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi AMEA Hüquq və İnsan haqları İnstitutunda yerinə yetirilmişdir. Tədqiqat işinin

əsas müddəaları müəllifin dissertasiyanın mövzusu üzrə AR, Moldova və Ukrayna Respublikasının nüfuzlu elmi jurnallarında müxtəlif dillərdə (azərbaycan və rus) dərc etdirdiyi elmi əsərlərdə, o cümlədən beynəlxalq elmi konfransın materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin strukturu.** Dissertasiya giriş, on bir paraqraf və iki yarımparaqrafı özündə təsbit edən dörd fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Tədqiqat işinin giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın strukturu haqqında məlumat verilir.

Birinci fəsli "**Genosid cinayəti və onun əlamətləri"** adlanır və beş paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** "Genosid cinayəti" anlayışının mahiyyətinə izah gətirilir. Bu zaman müxtəlif yanaşmalara istinad olunur. Qeyd edilir ki, Genosid Konvensiyasına əsasən, genosid anlayışı ilə dörd müdafiə olunan qrup ifadə olunur. Konvensiyanın əsas məqsədi genosid cinayətinin əsas qurbanları olan qrupları müdafiə etmək üçün suveren dövlətə müdaxilə, onun işinə qarışmaq olmamışdır. Siyasi qrupların Konvensiyaya daxil edilməməsi onun çatışmazlığı kimi qiymətləndirilsə də, Konvensiyanın bu yolla tənzimetmə obyektinin genişləndirilməsi, ona əlavə elementlərin daxil edilməsi başqa problemlərin yaranmasına yol açardı.

Genosid anlayışına daha çox onun motivi və genosid törədənlərin sonda hansı aqibətlə üzləşmələri prizmasından yanaşmaq mümkündür. Həmçinin, sosial yöndən baxdıqda da, genosid törədilə bilər. Lakin, burda fanatizm deyil, milli mədəniyyət genosid törədilməsi üçün şərt ola bilər. Bu tip sosial yöndə törədilən genosidlər əsasən repressiv cəmiyyətlərdə olur.

Bu istiqamətdə hələ o dövrdə Lemkin konsepsiyasında iki əsas qeyd olunası məqam var idi. Birincisi, o, vahid millət daxilində bütün qrupları müdafiə etməyi düşünürdü. İkincisi, o, etnosidi genosid növü kimi ifadə edir. 1948-ci il Genosid Konvensiyası Lemkinin konsepsiyasının güzəşti idi. Etnik qrupları və onların davranışlarını, millətlərin mədəniyyətini qorumaq üçün dörd müdafiə olunmalı qrup Konvensiyaya daxil edilir.

Genosidə geniş, çoxəhatəli anlayış vermək istəyən müəlliflər sovet dövrünün kütləvi qırğınları üzrə geniş araşdırmalar apararaq qeyd edirlər ki,



Sovet İttifaqında kulaklar hədəfə alınmış bir qrup kimi məhv edildiyindən, sosial-iqtisadi qrupları da Birləşmiş Millətlərin genosid təyinatına daxil etmək lazımdır. Genosid anlayışının hüquqi və sosioloji tədqiqatında əsas yer hüquqi təyinata verilməlidir. Çünki, problemin həlli genosid cinayətinin qarşısının alınması və cəzalandırılmasından ibarətdir. Bu da ancaq hüquqi yolla həllini tapa biləcək məsələdir. Burada beynəlxalq hüquqi tədbirlər dövlətdaxili qanunvericilik tədbirləri ilə sistemli şəkildə getməli, cinayətin bütün ünsürləri ehtiva edilməlidir.

Genosid anlayışının mahiyyətinə ilk hüquqi yanaşma 1948-ci ildə qəbul olunmuş Genosid cinayəti haqqında Konvensiya hesab oluna bilər. Konvensiyada genosid hər şeydən öncə beynəlxalq cinayət kimi təqdim olunur. Bundan başqa, Konvensiyada genosid insanlığa qarşı cinayətin müstəqil kateqoriyası kimi təqdim olunur. Əlavə olaraq onu da qeyd edək ki, genosid məhfumu ilk dəfə nasist cinayətkarlarına qarşı Nürnberq prosesində işlədilmişdir. Beynəlxalq Hərbi Tribunalın Nizamnaməsinin altıncı maddəsində genosid xarakterli əməllərə görə məsuliyyət nəzərdə tutulmuşdur. Ümumiyyətlə, genosid cinayəti ilə bağlı normativ hüquqi bazanın formalaşması diqqət mərkəzində olmuşdur. Bu normativ hüquqi bazanın formalaşmasında 1949-cu ildə qəbul olunmuş Cenevrə Konvensiyaları və 1977-2005-ci illər aralığında qəbul olunmuş əlvaə Protokollar həlledici rol oynamışlar.

Yuxarıda nəzərdən keçirdiyimiz məqamlardan aydın görünür ki, genosid anlayışının mahiyyətinə və genosid cinayətinin əlamətlərinə dair universal yanaşmanın mövcud olmamasına baxmayaraq, onun haqqında aydın təsəvvürlər mövcuddur. Formalaşmış əsaslı normativ-hüquqi baza genosid cinayətinə görə məsuliyyəti aydın şəkildə təsbit edir. Aydın dərk edilən məqamlardan biri də ondan ibarətdir ki, genosid cinyaətinin motivində əsasən siyasi elementlər dayanır.

"**Genosid cinayətində niyyət və motiv"** adlanan ikinci paraqrafda nəzərə çatdırılır ki, cinayətin motiv və məqsədi cinayət törədilənə qədər yaranır. Motiv maddi təbiətə malikdir, onun əsasını müxtəlif maddi və mənəvi sərvətə olan tələbat təşkil edir. Bu ehtiyac insana iztirab çəkdirir, onun orqanizmində müəyyən gərginlik yaradır, şüurunda maraq püxtələşdirir. Cinayət etməyə qətiyyət yaradan daxili oyanma normal, pozitiv tələbata deyil, qeyri-normal, təhrif olunmuş tələbata əsaslanır. Baş verən oyanma sadəcə şüurla əhatə olunmur, o, həm də dərk edilir. Cinayətin motivi ictimai-təhlükəli əməli törətməyə qətiyyət yaradan, konkret əməldə maddiləşən dərk olunmuş maraqdır. Motivin məzmununu açmaqla şəxsin konkret vəziyyətdə başqa cür deyil, məhz nə üçün belə hərəkət etməsi izah edilir. Motiv insanın

şüurlu fəaliyyətinin nüvəsidir, eləcə də ictimai təhlükəli fəaliyyətin mənbəyi, onun hərəkətverici qüvvəsidir.

Cinayətin motivi şəxsdə cinayət törətmək qətiyyəti yaradan və onun tələbatları və maraqları ilə şərtləşən daxili niyyətdir. Hər bir motiv, yalnız şüurda əks olunaraq konkret məqsədə nail olmaq səyi yaratdıqları halda, sövqedici amillər – motivlər kimi çıxış edir. Cinayətin məqsədi şəxsin konkret cinayəti törətməklə nail olmaq istədiyi gələcək nəticənin xəyali təsəffürü, modelidir. Motiv və məqsəd sıx qarşılıqlı əlaqədə olur, çünki motivin formalaşması müəyyən bir məqsədin də qarşıya qoyulmasını nəzərdə tutur. Motiv subyekti məqsədə (niyyətə) doğru aparan hərəkətverici qüvvədir.

Genosid cinayətində motiv kimi milli, etnik, irqi, dini dözümsüzlük, düşmənçilik, nifrət çıxış edir və ideologiya səviyyəsinə qaldırılaraq son nəticədə cinayətin məqsədini müəyyən edir. Bu zaman cinayətin məqsədlərindən fərqli olaraq motiv tərkibin subyektiv tərəfi kimi məcburi əlamət kimi çıxış etmir. Milli, irqi və dini nifrət başqa millətdən, irqdən və dindən olan bütün şəxslərə qarşı dayanıqlı şəkildə kin bəsləmək deməkdir. Milli, irqi və dini ədavət və düşmənçilik motivləri əsasında adam öldürmə o deməkdir ki, zərərçəkmiş təqsirkarda şəxsi keyfiyyətlərinə və ya konkret hərəkətlərinə görə deyil, məhz müəyyən bir millətin, irqin və ya dini konfessiyanın nümayəndəsi kimi özünə qarşı kin və ya düşmənçilik hissləri doğurur. Tövsif edilmiş qəsdən adam öldürmənin bu növü üçün, bir qayda olaraq, şəxsi xarakterli konfliktin mövcud olmaması səciyyəvidir.

Genosid cinayətinin iki əsas elementi vardır: niyyət və əməl (hərəkət, davranış). Niyyətlilik burada məqsədlilik mənasını verir. “Niyyət” bilavasitə bəyanatlar və qərarlar vasitəsilə də sübut oluna bilər. Lakin, daha çox hallarda genosid aktorunun bir-birilə əlaqəli, sistemli şəkildə hərəkətlərindən onun niyyəti barədə nəticə çıxarmaq olar.

Genosid cinayətində “niyyət” ümumilikdə, qrupun xüsusi üzvlərinə qarşı yönəlmiş bir elementdir. Genosid Konvensiyasında işlənən “dağıtmaq”, “məhv etmək” sözü qrupu dağıtmaq niyyətində olma mənasını verir. Qrupun məhvi aktiv şəkildə tətbiq olunduğu andan etibarən niyyətin olmasından danışmaq olar. Aktorun vəhşiliyi, qəddarlığı törətmək üçün başqalarının da cəlb olunduğu yerdə niyyət daha çox adama aid olur. Bu zaman genosid cinayətində motiv də formalaşır. Genosid Konvensiyasını hazırlayanlar niyyətlə baş verən cinayət anlayışını xüsusi tərkib kimi müəyyən ediblər. Cinayət qurbanlarının üzv olduğu qrupun məhv edilməsi niyyəti gizli saxlanılanda cinayəti törədən xüsusi qurbanlara potensial və ya həqiqi zərər yetirəcək cinayət aktı törədir.



“**Qrupu məhv etmək siyasəti**” adlanan üçüncü paraqrafda qeyd edilir ki, genosid hər hansı milli, etnik, irqi və ya dini qrupların tam və ya qismən məhv edilməsi niyyəti ilə müvafiq qrupun üzvlərinin qətlə yetirilməsi; müvafiq qrup arasında uşaq doğumunun qarşısının alınmasına hesablanmış tədbirlər; uşaqların zorakılıqla bir insan qrupundan digərinə verilməsi; belə bir qrupun üzvlərinin sağlamlığına ağır zərər yetirilməsi; hər hansı belə bir qrup üçün bilərəkdən onun tam və ya qismən məhvinə hesablanmış həyat şəraitinin yaradılması; belə bir qrupun üzvlərinin zorla köçürülməsidir. Əvvəlcədən hazırlanmış, planlanmış bir genosid kimi yenə də yəhudi holokostu, kamboca, Ruandada tutsilərin genosidini nümunə kimi göstərə bilərik. Bütün bu genosid cinayəti bir siyasətin və ya öncədən hazırlanmış planın olmasını tələb edir.

Bütün genosid aktlarının ümumi strukturu var: qrupun bir və ya bir neçə üzvlərinin məhv edilməsi kimi actus reus və Roma Statutunun 30-cu maddəsində təsvir olunmuş *mens rea*. Bütün genosid cinayətlərinin ümumi xarakterini formalaşdıran isə qrupun tam və ya qismən məhv edilməsi siyasətidir. Qrupu məhv etmək niyyəti Roma Statutunun 30-cu maddəsində 3 tip kateqoriyaya bölünür: davranış, nəticələr və şəraitlər. Roma Statutunun 6-cı maddəsi göstərir ki, genosidin mental mahiyyətini ortaya qoyan qrupu məhv etmək niyyəti (mens rea) qadağan olunmuş hərəkəti (mens rea) daha aydın şəkildə açıqlayır.

Qrupu məhv etmək niyyəti elementi genosid cinayətini insanlıq əleyhinə cinayət kateqoriyasına daxil olan cinayət kimi beynəlxalq səviyyəli cinayətlərdən fərqləndirir. Məsələn, belə cinayətlərdən biri də “izləmə, təqibetmədir”. Təqiblə qadağan olunma (hərəkət, davranış) şəxsin əsas hüquqlarının itirilməsidir. Beləliklə, genosid aktı təqiblə, izləmə ilə münasibətdə aralarında müəyyən oxşarlıq olmasına baxmayaraq ondan genişdir. Təqiblə, cinayətkar qrup üzvlüyünə görə qurbanları seçir, genosidlə qrupu məhv etmək niyyətində olur. Qrup üzvlüyünə görə qurbanların seçilməsini qrupu məhv etmək üçün birbaşa qurbanlara zərər yetirməkdən fərqləndirməkdən çətin ola bilər. Genosid və təqib, izləmə arasında fərq buradan meydana çıxır.

Qrupu məhv etmək üçün həyata keçirilən siyasətin tərkib hissəsi kimi törədilən genosid əməllərinə: qrup üzvlərinin öldürülməsilə nəticələnən birbaşa öldürmə və ölümə səbəb olan, ölümə gətirib çıxara biləcək əməllər; ciddi fiziki və mənəvi zərər yetirməyə səbəb olmaqla genosidə genişmiqyaslı işgəncə, qəddar davranış, zorlama, seksual zorakılıq, məcburi şəkildə narkotiklərdən istifadəyə təhrik etmə, yaralama daxildir. Genosid aktı dedikdə, təkcə qrup üzvlərinin öldürülməsi və ya öldürməyə səbəb

olma nəzərdə tutulmur. Fiziki və mənəvi zərər yetirmə də qrupun mövcudluğunu aradan qaldırmaq üçün onu məhv etmə siyasəti genosid aktına daxildir. Qrupun məhv edilməsinə istiqamətlənmiş həyat şəraitinin qəsdən yaradılması ilə qrupun fiziki mövcudluğu üçün həyati məna kəsb edən təmiz su, ərzaq, geyim, sığınacaq və tibbi xidmətlərdən onun məhrum edilməsi daxildir. Qrupu bu cür məhvetmə siyasətini həyata keçirmək üçün genosid aktorları məhsulun müsadirə edilməsi, yeyinti məhsullarının blokadaya alınması, məcburi şəkildə ərzaq məhsullarından uzağa köçürülmə vasitələrindən istifadə edilməsi; doğumun qarşısının alınması, o cümlədən məcburi şəkildə sterilizasiya, məcburi abort, evlənmənin qadağan edilməsi və nəsilartırmanın qarşısını almaq niyyəti ilə kişi və qadınların ayrılması; uşaqların məcburi şəkildə bir qrupdan digər qrupa köçürülməsi və ya verilməsi kimi tədbirlər daxildir.

Qrupu məhv etmək niyyəti xüsusi faktlar və şəraitlər əsasında ortaya çıxa bilər. Belə ki, eyni qrupa qarşı sistemli və xüsusi şəkildə təqsirli aktların hazırlanması, törədilən cinayət qurbanlarının miqyası, istifadə olunan silahlar, bədənə yetirilən fiziki zərərin səviyyəsi, dağıdıcı və ayrı-seçkiliyə əsaslanan aktların təkrarı nəticəsində genosid niyyətinin olmasını ehtimal etmək olar. Qrupu məhv etmək siyasətinin əsasında irqi, etnik, dini, milli amillərdən savayı siyasi, mədəni, gender kimi əsaslar da ola bilər. Hazırkı qloballaşma dövründə millətlərin bir-birinə inteqrasiya etdiyi, milli sərhədlərin aradan qaldırıldığı, gender bərabərliyinin geniş yayıldığı bir dövrdə siyasi, mədəni, gender amili əsasında qrupu məhv etmək siyasətinin həyata keçirilməsi çox da inandırıcı görünmür və konvensiyaya bu kimi düzəlişlərin edilməsinə zərurət də duyulmur. Ancaq dövlətlər arasında təbii resurslar, geostrateji maraqlar, dövlətlər arasında siyasi inamsızlıq şəraitində qrupu məhv etmək siyasətinin əsasında siyasi, gender, mədəni əsasın olması istisna edilmir.

**“Genosid cinayətində miqyas”** adlanan dördüncü paraqrafda qeyd olunur ki, genosid cinayəti müxtəlif ölçülərdə həyata keçirilə bilər. Məsələn, qısa zaman ərzində kiçik bir qrup üzvlərinin sistemli şəkildə soyqırıma məruz qaması və ya uzun müddət ərzində böyük sayda qurbanlar verməsi ilə reallaşdırılması qeyd edilə bilər. Genosid qurbanlarının sayı onun hansı səviyyədə vəhşiliklə törədilməsini müəyyənləşdirir.

Müəlliflər genosidin maddi təbiəti və sosial qruplar arasında balans olmamasının nəticəsi kimi meydana gəlməsini də qeyd edirlər. Genosid hökumət, elita tərəfindən onların niyyətinə cavab verəcək şəkildə müəyyən bir qrupun bir hissəsinin və ya tamamilə məhv edilməsinə hesablanmış cinayətdir. Genosid çoxluğun azlığa qarşı davranışıdır. Lakin, bu fikir birmənalı qəbul edilə bilməz. Məsələn, 1990-cı illərdə Bosniya müsəlmanlarının serblər



tərəfindən qətlə yetirilməsinə nəzər yetirdikdə bu fikrin həqiqət olmadığını görürük. Çünki, serblər Bosniya əhalisinin cəmi otuz faizini təşkil edirdi. Ona görə də, genosid anlayışını çoxluğun azlığa qarşı qətl törətməsi, çoxluğun azlıq üzərində hökmranlığı kimi məhdudlaşdırmaq olmaz.

Genosid və insanlıq əleyhinə cinayətləri analiz etdikdə oxşar və fərqli cəhətlər üzə çıxsa da, Ruanda və Yuqoslaviyada baş verən cinayətləri araşdıran xüsusi beynəlxalq tribunallar genosid və insanlıq əleyhinə cinayətləri tamamilə ayrı-ayrı nəzərdən keçiriblər. Bir şəxs həm genosid, həm də insanlıq əleyhinə cinayətdə ittiham olunub.

Qrupu məhv etmək siyasətində “tam və ya qismən” ifadəsi diqqəti cəlb edir. Soyqırım cinayətinə görə, məsuliyyətin ortaya çıxması üçün müəyyən qrupun tamamilə və ya qismən məhv edilməsindən ibarət son nəticənin əldə olunması kimi tələb olunmur. Bunun üçün həmin cinayətin obyektiv cəhətini təşkil edən əməllərdən hər hansı birinin müəyyən qrupun tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi kifayətdir. Niyyəti sübut etmək çətindir, o, sübuta ehtiyacı olan bütün cinayətlərdə əsas mənəvi elementdir. Bir qrupun sistemli şəkildə məhv edilməsi cinayət əməllərindən və niyyətdən ibarət olduğundan cinayəti müəyyən etmək olur. “Tam və ya qismən” ifadəsi isə o mənanı ehtiva edir ki, əgər genosid cinayətini törədən bir qrupu tamamilə məhv etməyi qarşısına qoymuş, lakin buna tam nail olmamışsa da, qrupun bir hissəsinin məhv edilməsi də genosd aktı hesab edilməlidir. Bu halda qrupun üzvləri genosid qurbanları sayılırlar. Əlavə olaraq, qismən qrupu məhv etmək özü ayrılıqda genosid aktıdır. Genosid “şəxslərin müəyyən insan kollektivinə üzvlüyü səbəbindən fiziki həyatının qəsdən, düşünülmüş şəkildə məhvi” kimi təzahür edir. Irqi, dini, etnik, milli zəmində bir neçə insanın öldürülməsi də genosid niyyətinin olmasının göstəricisidir. Əksər halda səlahiyyətli orqanlar qrupun əsaslı şəkildə məhvinə gətirib çıxaran aktları genosid aktı hesab edirlər. Ancaq əgər genosid cinayəti törətmək istəyən aktorun niyyəti bütöv qrupu məhv etməyə istiqamətlənmişsə də, sonda qrup üzvlərindən bir nəfərin ölümü də genosid aktı olacaq. Çünki, burada cinayətin həlledici komponenti olan niyyət qrupun məhv edilməsinə istiqamətlənib. Genosid cinayətkarın fikrində xüsusi niyyət tutaraq oxşar xüsusiyyətlərinə, qrupa mənsubluğuna görə xüsusi müdafiə olunmuş qrupda birləşmiş şəxslərə qarşı törədilən cinayətdir.

Genosid aktı həm pərakəndə, həm də genişmiqyaslı formada və uzun vaxt müddətində törədilən genosid aktlarına bölünür. Genişmiqyaslı genosid aktı dedikdə Ruanda göz önünə gəlir. Lakin kiçik həcmli, pərakəndə şəkildə tək-tək baş verən genosidlərə də rast gəlmək mümkündür. Genosid adətən “kütləvi cinayət” kimi xarakterizə olunsa da nəticə ondan ibarətdir ki, burada say mütləq element deyil.

Genosid Konvensiyasının II maddəsi müvafiq elementləri özündə birləşdirən vəziyyətlərdə genosidi məhdudlaşdırmır. Əksər genosid ittihamları üçün genişmiqyaslı talanlar xarakterikdir. Baş vermiş genosid aktları ekstensiv coğrafi zonada tipik şəkildə genosid qurbanlarına qarşı yönəlmiş xüsusi sosial statuslu qurbanlarla məhdudlaşmayıb.

Genosid aktları müəyyən niyyət və qrupla məhdudlaşanda genosid təsdiqlənir. Genosid yalnız kiçik bir coğrafi zonada hədəfə alınmış qrupa qarşı törədilə bilər. Genosid ayrılmış qrupa münasibətdə törədilə bilər və bu aktorun hərəkətlərinin hədəfə alınmış qrupu məhv etməyə görə özünün maraq dərəcəsi mövcud olur. Bu tarixi aspektdə də baş vermişdir. Məsələn, azərbaycanlılara qarşı davam edən cinayətlər qetd edilə bilər.

**"Genosid cinayətində dövlətin iştirakı"** adlanan beşinci paraqrafda nəzərə çatdırılır ki, Genosid aktında dövlətin iştirakı problemi əsasən 90-cı illərdə meydana gəlməyə başladı. Ruanda və Balkanlarda cinayətkar liderlər qapalı, təşkilatlanmış, sistemli şəkildə zorakı kompaniyalara rəhbərlik edərək, etnik, dini və ya milli kimlik əsasında günahsız, müdafiəsiz mülki şəxslərin kütləvi qətllərini törədirlər. Müvafiq ərazidə çoxluğun hakimiyyəti ilə milyondan çox günahsız mərkəzi afrikalı və balkanlı qadın, kişi və uşaqlar məhv edilmiş və hələ də milyonlarla insan bunun fiziki və psixoloji əziyyətini çəkməkdədir. Dünya dövlətləri keçən əsrin 40-cı illərində nasist holokostundan sonra heç vaxt yenidən belə bir cinayətin baş verməyəcəyinə söz verdiklərini bildirsələr də, 90-cı illərdə belə bir utandırıcı epizodların, kütləvi insan qırğınlarının baş verməsi, buna böyük dövlətlərin göz yumması genosid cinayətinin törədilməsində elə məhz dövlətin iştirak ehtimalını daha da gücləndirdi. Xüsusən də, fövqəldövlətlərin imperiya maraqları baş vermiş böyük cinayətlərə görə onların məsuliyyət daşıması məsələsini ortaya çıxardı. Bu dövrdən başlayaraq "Genosidə görə dövlətlərin hansı öhdəliklərinin olması", "Nədən dövlətlər öhdəliklərini yerinə yetirə bilmirlər" kimi suallar meydana çıxmağa başlayır.

Ikinci dünya müharibəsindən qalib çıxan Qərb dövlətləri genosidin qarşısının alınması, kökünün kəsilməsi və cəzalandırılması üçün ümumi öhdəlik götürüblər. Onlar hələ də bütün dünyada bu cinayət aktının cəzalandırılmasının baş müdafiəçiləri kimi özlərini göstərirlər.

Əgər dövlətin genosid cinayətində iştirakı ilə bağlı Genosid Konvensiyasına baxsaq görərik ki, Konvensiyanın I maddəsində dövlətlər üçün genosid cinayəti ilə bağlı iki əsas öhdəlik qoyulub. Genosid cinayətinin qarşısının alınması və bu cinayətin cəzalandırılması. Konvensiya birbaşa olaraq, dövlətlərə genosid cinayəti törətməyi qadağan etmir. Bu qadağa tarixən ancaq şəxslərə şamil olunub.



Dövlətlərin genosid cinayətində iştirakını müəyyən etmək məsələsi beynəlxalq tribunalların təcrübəsində də davamlı olaraq meydana çıxsa da qiymətləndirmə birmənalı olmamışdır. Məsələn, Yuqoslaviyadakı genosid cinayəti ilə bağlı hakiniyyət funksiyasında olmuş Celisikin işində Məhkəmə Palatasının onun işindən imtina etmə səbəbi kimi onun bu genosid aktının törədilməsinə istiqamət verməməsi, onun iştirakçısı olmaması qənaəti idi. Hesab edilib ki, ümumplan və siyasətin mövcudluğu fikri cinayətin hüquqi tərkibi deyil. Lakin, Apellyasiya Palatası Celisikin niyyətinin olmaması fikri ilə bağlı Məhkəmə Palatası ilə razılaşmır və Apellyasiya Palatası bildirir ki, Celisikin genosid niyyəti olmuşdur. Celisikin müsəlmanlara nifrətini ortaya qoyan sübutlar mövcud olub. Bildirilir ki, Celisik öz bəyanatlarında daima müsəlmanları öldürmək, bütün müsəlmanları yer üzündən silməyə, müsəlmanların artımının qarşısını almaq üçün qadınları sterilizasiya etməyə, müsəlman kişilərin sayını azaltmağa səsləyib. Apellyasiya Palatasının mövqeyinə əsasən, onun bu davranışları Bosniya müsəlmanlarını məhv etmək niyyətinin olmasının göstəricisidir.

Genosid Konvensiyası hazırlanarkən VI Komitədə dövlətin də genosid törədilməsinə rəvac verməsi məsələsi müzakirə predmeti olmuşdu. VI Komitə genosid elementi kimi dövlətin onda iştirakına görə məsuliyyətli olması təklifindən imtina etmişdi. Bu məsələ dövlətlərin müvafiq təklifləri əsasında meydana gəlmişdi. Məsələn, Fransa II maddəyə belə bir əlavə etməyi təklif etmişdi ki, "Genosid dövlət başçıları tərəfindən törədilir, həvəsləndirilir və onun mənfi təzahürlərinə qarşı da mübarizə aparılır". Buna qarşı çıxanlar iddia etdilər ki, genosid dövlətlərin iştirakı olmadan şəxslər tərəfindən də törədilə bilər. VI Komitə də Fransanın təklifindən imtina edir.

İkinci fəsil **"Genosid cinayətinə qarşi hüquq normalarinin xüsusiyyətləri"** adlanır və iki paraqrafdan ibarətdir.

Bu fəslin **"Genosidin cinayət kimi tanınmasının hüquqi əsaslarının formalaşması"** adlanan birinci paraqrafında nəzərə çatdırılır ki, Birinci Dünya Müharibəsindən sonra genosid cinayətinə hüquqi qiymət verilməsi və ya istənilən bir beynəlxalq orqanın yaradılması və formalaşması yolunda o qədər də ciddi mütərəqqi addım atılmadı.Yalnız bu cinayət özünün qiymətləndirilməsində dövlətlərin daxili yurisdiksiyası çərçivəsində qaldı. Lakin, Birinci Dünya Müharibəsindən sonra Şərqi Avropada milli azlıqların öz hüquqlarının qorunmasına dair çıxışlar etməsi və onlara qarşı ayrı-seçkilik siyasətinə son qoyulmasının tələb olunması Millətlər Cəmiyyətinə az da olsa təsir edir. Dövlətlər yalnız İkinci Dünya Müharibəsindən sonra millətlərlə hansı formada davranış prinsipinə görə beynəlxalq hesabat verməyə məcbur edilməyə başlayırlar. Almaniyada III Reyx tərəfindən öz

mülki şəxslərinə qarşı törədilən vəhşilik beynəlxalq aləmdə millətlərin müdafiə hüququnu yaradır. Bu hüquq isə dövlətlərin öz vətəndaşlarına münasibətdə beynəlxalq öhdəliyini ehtiva edir. Bu konteksdə genosid cinayəti müəyyən şəklə düşməyə, formalaşmağa başlayır.

Siyasətçilər, hüquqşünaslar arasında bu cinayətin fərqləndirilməsinə, ona anlayış verilməsinə çalışılır. Məsələn, Almaniyada III Reyxin bu amansız siyasəti Vinston Çörçili elə qəzəbləndirmişdi ki, o, bunu "adsız cinayət" adlandırmışdı. Həmin bu "adsız cinayət" gələcəkdə "genosid cinayəti" anlayışının başlanğıcını qoyacaqdı.

Beynəlxalq Hərbi Tribunalın Xartiyasına yaxın olan "İnsanlıq əleyhinə cinayətlər" genosid cinayəti kimi formalaşdırılır. Bilavasitə genosid aktı ilə kütləvi qırğınlara görə İkinci  dünya müharibəsindən sonra Almaniya və Yaponiyada heç kəs məsuliyyətə cəlb olunmasa da, genosid termini o vaxtdan işə düşməyə başlayır. Alman qüvvələrinin Polşa və Rusiyaya müdaxiləsi, onları və qarşı tərəfi müşahidə edən hərbçiləri öldürən komandirlər və digər şəxslər "insanlıq əleyhinə cinayətlər" adı altında ittiham olunurlar, ittihamçılar "genosid" terminindən öz davranışlarını təsvir etmək üçün istifadə edirlər.

Soyqırımın bir davranış kimi beynəlxalq hüquqi kontekstdə qadağan olunması, onun müstəqil beynəlxalq cinayət qismində ayrılması və həmçinin beynəlxalq fərdi cinayət məsuliyyəti doğurması sahəsində əhəmiyyətli addım XX əsrin 40-cı illərinin sonlarına təsadüf edir. Soyqırım cinayətinin fərdi cinayət məsuliyyəti doğurması ilk dəfə olaraq BMT Baş Assambleyasının 11 dekabr 1946-cı ildə qəbul etdiyi 96(I) saylı Qətnaməsində təsbit olunmişdur. Bir az sonra BMT Baş Assambleyasının qəbul etdiyi 180(II) saylı 21 noyabr 1947-ci il tarixli Qətnaməsində qeyd edilmişdir ki, soyqırım ayrı-ayrı şəxslərin və dövlətlərin milli və beynəlxalq məsuliyyətinə səbəb olan beynəlxalq cinayətdir. Soyqırım cinayətinin tərkib ünsürlərinin yekun qeydiyyatı və onun beynəlxalq müstəvidə qadağan edilməsi 1948-ci il "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın qəbul edilməsi ilə tamamlanmışdır. Məhz həmin Konvensiyanın qəbulundan sonra soyqırım müstəqil beynəlxalq cinayət hesab edilir.

Konvensiyanın preambulasında qeyd olunduğu kimi, soyqırım bütün tarix boyu bəşəriyyətə böyük itkilər gətirdiyini etiraf edərək, bəşəriyyəti bu məşhur bəladan xilas etmək üçün beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq bu Konvensiya qəbul olunmuşdur. Konvensiyaya görə soyqırım hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etnək məqsədilə edilən hərəkət kimi müəyyən edilir. Analoji müddəa Yuqoslaviya beynəlxalq cinayət tribunalının nizamnaməsində (m.4), Ruanda beynəlxalq cinayət tribunalının nizamnaməsində (m.3), Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda (m.6) və bəzi dövlətlərin cinayət qanunvericiliyində əks olunmuşdur. Kütləvi qırğınlara son qoymaq və onlara hüquqi qiymət vermək üçün 1948-ci ildə BMT-nin Genosidin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın ərsəyə gəlməsi ilə dövlətlər öz missiyalarını az da olsa yerinə yetirmiş oldular. Dünya bir də belə kütləvi qırğınların baş verməyəcəyini öz öhdəsinə götürür. Belə qəbul edilir ki, genosid elə bir cinayətdir ki, onu rüşeymdəcə boğmağa yol axtarmaq lazımdır. II Dünya Müharibəsi zamanı baş vermiş insan qırğınlarının Genosid Konvensiyasını ərsəyə gətirməsinə baxmayaraq, bu konvensiyanın mətni kütləvi qırğınlarla bağlı mülayim yanaşmanı əhatə edir. Konvensiyanı hazırlayanlar kütləvi insan qırğınları və genişmiqyaslı talanlardan qorxduqlarından  onu elə hazırladılar ki, genosid baş verərkən onun kütləvi şəkildə genişmiqyaslı ziyanlarının qarşısı alısın və s.



**"Genosid cinayəti üzrə beynəlxalq hüquq normalarının milli hüquqi implementasiyası"** adlanan ikinci paraqraf iki hissədən ibarətdir. Birinci hissədə genosid cinayəti üzrə beynəlxalq müqavilə normalarının daxili qanunvericilikdə implementasiyasından bəhs olunur. İkinci hissədə isə, genosid cinayətinə görə beynəlxalq adət norması və onun daxili hüquqda həyata keçirilməsi məsələsinə toxunulur. Bu paraqrafın birinci hissəsində qeyd olunur ki, beynəlxalq hüquq normaları lazımi şəkildə yalnız daxili hüquq normaları ilə həyata keçirilə bilər. Dövlətlər beynəlxalq öhdəliklərini yerinə yetirmək üçün beynəlxalq hüquq normalarının realizəsi prosesində özünün daxili normalarından çıxış edir. Beynəlxalq hüquq normalarının həyata keçirilməsinin mühüm vasitəsi kimi dövlətdaxili qanunvericilik və digər təşkilati xarakterli tədbirlərin görülməsi zəruridir. Hüquq normalarının səmərəliliyi məhz onların realizəsində ifadə edilir. Beynəlxalq hüquq normalarının həyata keçirilməsinin forma və metodları da müxtəlif ola bilər və dövlətdən dövlətə dəyişə bilər.

Professor L.H.Hüseynov haqlı olaraq qeyd edir ki, beynəlxalq hüquq normalarının implementasiyası, yalnız milli qanunvericiliyin və milli məhkəmənin iştirakı ilə mümkündür. Bu tələbin yerinə yetirilməsinin forma və vasitələrinin seçilməsi hər bir dövlətin konstitusiya qanunvericiliyi və praktikası ilə müəyyən edilir.

Beynəlxalq müqavilə öhdəliyi müqavilə iştirakçılarını daxili tədbirlər görməyə məcbur edirsə, belə qanunların hazırlanması müqavilənin müddəalarının icrasının təmin edilmədir. Bu məsələ hüquq ədəbiyyatında «resepsiya», «milli-hüquqi implementasiya», «istinad», «adaptasiya», «inkorparasiya», «transformasiya»  və s. kimi ifadə edilməkdədir. Bir sıra müqavilələr isə

öhdəliklərin həyata keçirilməsi üçün dövlətin üzərinə daha geniş məsələlərin həllini eləcə də qanunvericilik tədbirləri ilə yanaşı inzibati, məhkəmə və s. tədbirlərinin görülməsi vəzifəsini də qoyur. Məsələn, Cinayətlə əldə edilmiş əşyaların axtarışı, müəyyən edilməsi və götürülməsi haqqında 1990-cı il Konvensiyasında qeyd edilir ki, hər bir tərəf tələb edilə biləcək qanunvericilik və digər tədbirləri görmək öhdəliyi daşıyır.

İkinci paraqrafın ikinci hissəsində nəzərə çatdırılır ki, dövlət orqanları tərəfindən beynəlxalq hüquq normaları tətbiq edilərkən ümumi beynəlxalq hüquq normalarının dövlətdaxili hüquqi əsasının müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq cinayətlər kimi genosid və d. cinayətlər baş verdiyi halda onların cəzasının tətbiqi zamanı, ümumiyyətlə dövlətlər tərəfindən beynəlxalq hüquq normalarının gözlənilməsi üçün bu normaların hüquqi xüsusiyyətləri düzgün müəyyən edilməlidir.

Genosid cinayəti də daxil olmaqla beynəlxalq cinayətləri qadağan edən beynəlxalq hüquq normaları imperativ xarakterli beynəlxalq adət, ümumtanınmış normalar kimi bərqərar olmuşlar. Bu normaların dövlətdaxili qanunvericilik əsasının formalaşdırılması onların digər normalar sistemində yerinin müəyyən edilməsi xüsusi məsələlərdən sayılmaqdadır. Beynəlxalq hüququn ümumtanınmış normaları müxtəlif ifadə formalarında ayrı-ayrı ölkələrin qanunvericiliyində ifadə edilib. Buna görə də bir sıra dövlətlərin konstitusiyalarında beynəlxalq adətin dövlətdaxili hüquq sistemində tətbiqi əsasları birbaşa nəzərdə tutulduğu halda, beynəlxalq adət normalarının daxili hüquq sistemində tətbiqinin praktiki çətinlikləri ilə bağlı olaraq başqa qrup dövlətlərin daxili hüququnda bu prinsiplərin əsasları ifadə edilməmişdir. Beynəlxalq cinayətləri qadağan edən ümumtanınmış adət normalarının daxili qanunvericilikdə implementasiyası xüsusiyyətləri beynəlxalq sülhün və təhlükəsizliyin, insan hüquqlarının qorunması, beynəlxalq səviyyədə cinayətkarların mühakiməsi və onların verilməsi və b. məsələlərlə birbaşa bağlıdır.

Beynəlxalq adət hüququ öz təbiətinə görə yalnız istiqamətverici rol oynayan əsas hüquqi prinsipləri irəli sürə bilən, bu və ya digər konkret dövlətdaxili işin həlli zamanı birbaşa istinad edilə bilməsi mümkün olmayan hüquqi standartlardır. Bu və ya digər belə normaya istinad etməzdən əvvəl hüququ tətbiq edən orqan həmin normanın həqiqətən mövcud olduğuna və onun məcburi xarakter daşımasının həm bütövlükdə beynəlxalq birlik tərəfindən, həm də müvafiq dövlət tərəfindən tanındığına dair sübutlar gətirməlidir. Hər hansı bərqərar olmuş və "hamılıqla tanınmış beynəlxalq hüquq normasının" mövcud olduğunu söyləmək üçün təkcə hansısa universal müqaviləyə, o cümlədən Genosid haqqında 1948-ci il tarixli Konvensiyaya istinad etmək yetərli olmaya bilər.



Dissertasiyanın üçüncü fəsli **"Genosid cinayətinə görə məsuliyyətin tətbiqində beynəlxalq məhkəmə mexanizmləri"** adlanır və iki paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** qeyd edilir ki, insan hüquqlarının müdafiəsi sistemi üzrə kifayət qədər beynəlxalq hüquq normalarının qəbul edilməsinə baxmayaraq bu gün də bu hüquqların ciddi, kütləvi və sistematik olaraq pozulması davam etməkdədir. Bir sıra dövlətlər bu və ya digər beynəlxalq müqavilənin tərəfdarı olmadığını, bəziləri isə bu və ya digər beynəlxalq müqaviləni qeyd-şərtlə tanıdığını əsas gətirərək müəyyən hüquqlar üzrə beynəlxalq öhdəlik daşımadıqlarına istinad edirlər. Dövlətlər insan hüquqları ilə bağlı bir tərəfdən yurisdiksiyasında olduğu şəxslərə münasibətdə hüquq və vəzifələri paylaşırsa, digər tərəfdən müvafiq hüquqlara münasibətdə beynəlxalq birlik qarşısında öhdəlik daşıyır. Beynəlxalq aktların iştirakçısı olan dövlətlər əsas hüquq və azadlıqların qorunmasını yüksəltmək məqsədilə onları beynəlxalq nəzarət strukturlarına həvalə etməklə onların öhdəliklərinin təbiətində də dəyişiklik baş verir. Beynəlxalq hüquq normalarının həyata keçirilməsi zamanı BMT Nizamnaməsində ifadə edilən məqsədlər üçün, xüsusən də beynəlxalq sülhün və təhlükəsizliyin təminatı məqsədilə hüquqi qurumlar, o cümlədən beynəlxalq məhkəmələr, tribunallar da təsis etməkdədir. Beynəlxalq hüquqa qarşı cinayətlər, insan hüquqlarının kütləvi, sistematik pozuntuları zamanı beynəlxalq cinayətləri araşdıracaq beynəlxalq tribunalların təsis edilməsi beynəlxalq sülhün qorunmasında çox mühüm əhəmiyyət kəsb etmişdir.

Bütün ad hoc tribunallar üçün ümumi xüsusiyyətlər mövcuddur. Bu xüsusiyyətlərə onların yurisdiksiyasının şəxsi, ərazi və müəyyən zaman xarakteri aiddir ki, bu da onların adında belə ifadə edilmişdir. Cinayət məsuliyyəti və ədalət mühakiməsi milli hüquq əsasında deyil, beynəlxalq hüquq əsasında keçirilir. Ad hoc tribunallardan Yuqoslaviya və Ruanda üzrə tribunalları formalaşdırmış normaların hüquqi təbiəti daha çox diqqəti cəlb edir. Məsələ ondadır ki, «hər iki tribunal beynəlxalq müqavilə əsasında deyil» BMT TŞ-nin qərarı (qətnaməsi) əsasında «fövqəladə qaydada təsis edilmişlər». BMT Nizamnaməsinin VII fəslinin genişləndirilmiş təfsirinə uyğun olaraq TŞ sülhün pozulması, təcavüz aktı üzrə səlahiyyətinin həyata keçirilməsinə istinad etmişdir. Qərarda qeyd edilir ki, hərbi cinayətkarların cəzalandırılması beynəlxalq sülhün bərpasına və saxlanmasına xidmət edəcək. TŞ qərarı ilə tribunalların təsisi beynəlxalq hüquqşünaslar tərəfindən müəyyən hallarda tənqid də olunmuşdur. Bu da onunla bağlıdır ki, BMT

Nizamnaməsində tribunalların TŞ tərəfindən təsis edilməsi ilə bağlı hər hansı bir norma yoxdur. Mütəxəssislər arasında belə bir fikir üstünlük təşkil edir ki, yalnız BMT Baş Məclisi məhkəmə orqanı yaratmaq səlahiyyətinə malikdir. Bu məsələ BMT Beynəlxalq Məhkəməsinin qərarında da təsdiqlənmişdir. Beynəlxalq Məhkəmə özünün 13 iyun 1954-cü il məsləhət rəyində də BMT Nizamnaməsinin 22-ci maddəsinə istinad edərək bildirmişdir ki, bu halda BMT Baş Məclisi öz mandatından kənara çıxmır.

Həm ad hoc tribunallara, həm də Beynəlxalq Cinayət Məhkəməsinə (BCM) münasibətdə belə bir mövqe mövcuddur ki, bu qurumlar siyasi qərar əsasında deyil, beynəlxalq razılaşma əsasında təsis edilməli idi, necə ki, sonuncu Məhkəmə həmin qaydaya əsaslanaraq təsis edilib. Lakin belə bir məqama da diqqət çəkilməlidir ki, BCM təsis edilənə kimi beynəlxalq cinayətlərin, o sümlədən genosid cinayətinin qarşısını almaq üçün təcili tədbirlər görülməli idi. Belə olan hallarda BMT TŞ BMT Nizamnaməsinin VII fəslinin 25-ci maddəsinə əsasən beynəlxalq sülhə və təhlükəsizliyə təhdid kimi təsavüz aktının, sülhün pozulması ilə müşayət olunan cinayətlərin qarşısını almaq üçün tribunalların təsis edilməsinə getmişdir. Bu məsələ ilə bağlı TŞ-nin səlahiyyəti BMT Baş Katibinin hesabatında əsaslandırılıb.

**“Beynəlxalq Cinayət Məhkəməsi və onun genosid cinayəti üzrə yurisdiksiyası”** adlanan ikinci paraqrafda nəzərə çatdırılır ki, öz xarakterinə və zərərli nəticələrinin miqyasına görə yalnız bir və ya bir neçə dövlətin deyil, həm də bütöv regionların hüdudlarından çox-çox kənara çıxan əməllərin təhlükəlilik dərəcəsinin qarşısını səmərəli surətdə almaq üçün müasir dövrdə milli məhkəmə sistemləri kifayət etmir. Buna görə də, beynəlxalq cinayətlər barəsində subsidiar cinayət yurisdiksiyasını həyata keçirməli olan beynəlxalq məhkəmə orqanları təsis edilir. Bunu qeyd etmək kifayətdir ki, son 10 ildə üç ad hoc beynəlxalq tribunal (Yuqoslaviya, Ruanda və Syerre-Leone tribunalları) və daimi fəaliyyət göstərən Beynəlxalq Cinayət Məhkəməsi yaradılmışdır. 11 mart 2003-cü ildə Haaqada BCM-in açılışı olmuş və Məhkəmənin ilk hakim heyəti andiçmə prosesini keçmişdir. AR da Roma konfransında 160 dövlətdən biri kimi iştirak etsə də Statutu ratifikasiya etməyib. Lakin əlamətdar haldır ki, Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda təsbit olunmuş genosid, müharibə cinayətlərinin və insanlıq əleyhinə cinayətlərin tərkibləri AR-in CM-də əks etdirilmişdir.

Beynəlxalq cinayət tribunallarının və xüsusən, Beynəlxalq Cinayət Məhkəməsinin təsis olunması beynəlxalq cinayət hüququnun normalar sisteminin inkişafına çox böyük təkan vermişdir. Qeyd etdiyimiz kimi Statutu ratifikasiya etməyən dövlətlər belə onun müddəalarına xüsusi əhəmiyyət verirlər. Hazırda 115-dən çox dövlətin Statutu ratifikasiya etməsi də



qurumun beynəlxalq əhəmiyyətindən xəbər verir. Cinayət Məhkəməsinin Statutunun «yurisdiksiya, aidiyyat və tətbiq edilən hüquq» adlanan ikinci hissəsində, məhkəmənin mühakimə yurisdiksiyasına aid olan cinayət tərkibləri, o cümlədən genosid cinayətinin anlayışı öz ifadəsini tapıb.

Statutun 25.2-ci maddəsində deyilir ki, Məhkəmənin yurisdiksiyası altına düşən cinayəti törətmiş şəxs fərdi məsuliyyət daşıyır və bu Statuta əsasən cəzalandırılmalıdır. Məhkəmənin açılışı zamanı artıq dünyada mövcud olan 40 münaqişə ocağında yaranmış pozuntular məhkəməyə təqdim edilir. BCM onun yurisdiksiyasına aid edilmiş cinayətləri törətmiş fiziki şəxslərin cinayət təqibini həyata keçirmək üçün təsis edilib və bu şəxslərin statusu Məhkəmənin yurisdiksiyasına təsir etmir. Dövlətlərin məsuliyyət probleminə baxılması BCM-in səlahiyyətinə aid deyil.

BCM daimi əsasda fəaliyyət göstərən, mənzil qərargahı Haaqada yerləşən, beynəlxalq müqavilə (Statut) əsasında təsis edilmiş spesifik personala malik beynəlxalq məhkəmə qurumudur. Məhkəmənin işçi dilləri kimi ingilis və fransız dilləri qəbul edilib. Beynəlxalq Cinayət Məhkəməsi Statut əsasında yaradılmış beynəlxalq təşkilat kimi müstəqil surətdə fəaliyyət göstərən iki təşkilati strukturun məcmusudur. Bir halda Beynəlxalq Cinayət Məhkəməsi iştirakçı dövlətlərin Assambleyası da daxil olmaqla fəaliyyət göstərir. Digər halda Məhkəmə yalnız özünün mühakimə orqanlarını ehtiva edir. Roma Statutunun müddəalarını təhlil edərkən aydın olur ki, Məhkəmə özünün fəaliyyəti prosesində BMT ilə, Məhkəmənin yurisdiksiyasını tanıyan Statutun iştirakçı dövlətləri ilə, xüsusi razılaşma üzrə başqa dövlətlərlə, BMT Təhlükəsizlik Şurası ilə, Statutun iştirakçı-dövlətlərinin Assambleyası ilə İnterpolla, dövlətlərin məhkəmə və başqa ədliyyə orqanları ilə, ittiham olunan, zərər çəkən, şahid və məhkəmə israatının aparılması ilə əlaqəli olan başqa şəxslərlə münasibətlər yarada bilər.

**Dördüncü fəsil “Ermənistanın Azərbaycana təcavüzü zamanı həyata keçirilmiş beynəlxalq cinayətlərdə genosid niyyəti”** adlanır və iki paraqrafdan ibarətdir.

Bu fəslin **“Erməni-rus şovinizminin türk-müsəlman əhaliyə qarşı genosid niyyətinin tarixi aspekti”** adlı birinci paraqrafında qeyd edilir ki, müasir dövrün bir çox genosid aktlarındam fərqli olaraq Azərbaycanda genosid daha genişmiqyaslı olub. Məsələn, Yuqoslaviya Tribunalının Məhkəmə Palatası özünün Kristikin işində qərara gəlir ki, öldürülən 7500 nəfər Srebrenikada məskunlaşmış 40 min Bosniya müsəlmanlarının əhəmiyyətli hissəsidir. Qeyd edilir ki, qrup Bosniya müsəlmanları idi. Müdafiə olunmuş qruplar hazırkı cinayət işində Bosniya müsəlmanları kimi müəyyən

olunmalıdır. Srebrenikanın Bosniya müsəlmanları müdafiə olunan qrupun bir hissəsini təşkil edir.

Sosial aspektdə azərbaycanlılara qarşı sosial genosid çar Rusiyası dövründə olduğu kimi, sovet dönəmində də aydın müşahidə olunmuşdur. Yuqoslaviya beynəlxalq Tribunalının (Prosecutor v. Karadic və Mladic işi) qərarında deyilir ki, Sosial aspektdə qrupa qarşı hücumlar milli və mənəvi resursları zəiflətməyə yönəldilir. Başqa millətləri velikorus nüvəsi ətrafında birləşdirib özünə tabe etmək niyyətini həyata keçirmək üçün çoxmillətli ölkənin idarə olunmasını "millətlərin və xalqların inkişaf səviyyəsini birləşdirmək" adı altında Moskvada cəmləşdirilməsi, "millətlərin ..yaxınlaşmasını sürətləndirmək" şüarı altında mədəniyyət və məişətin standartlaşdırılması həyata keçirilirdi. Dövlət quruculuğunda milli amilin təhrif olunması əhalisi müsəlman olan respublikalarda, o cümlədən Azərbaycanda xüsusilə aydın şəkildə təzahür edirdi. Vəzifəyə təyin olunan zaman kadrların uçotu anketində "milliyyət" haqqında bənd həlledici rol oynayırdı. O, milli qrupların sıxışdırılıb uzaqlaşdırılması üçün əlverişli vasitə, əslində vətəndaşların Konstitusiya hüquqlarının pozulması demək idi. Cəza orqanlarında ruslar və ermənilər, hətta digər gəlmə millətlərin nümayəndələri də çoxluq təşkil edirdilər.

Mədəni xüsusda genosid hədəfə alınan qrupun doğma dildən istifadəsini məhdudlaşdırmaq və mədəni-tarixi təbliğatı zəiflətməkdir. Azərbaycanlılara münasibətdə milli ədalətsizliyin konservasiyası, suveren hüquqların tapdanması, dil-mədəniyyət siyasətinin təhrif edilməsi (Azərbaycanda əlifbanın bir necə dəfə dəyişdirilməsi, soy adlarının ruslaşdırılması və s.- kurs müəll.) siyasəti həyata keçirilirdi. Rus dilinin "birinciliyi" ictimai-siyasi və mədəni həyatın bütün sahələrində həlledici amilə çevrilərək, milli dilləri sıxışdırır, xalqlar arasında ayrı-seçkilik salınmasına, onların öz dil köklərindən uzaqlaşdırılmasına, öz ədəbiyyatı və tarixi keçmişinə biganə qalmasına, orijinal mədəni ənənələri unutmasına səbəb olmuşdu.

Azərbaycanda rus-erməni soyqırım cinayəti müəyyən bir plan, siyasət çərçivəsində həyata keçirilmişdir. Azərbaycanlılara qarşı həyata keçirilən genosidin baş verdiyi illərə və bunlar arasındakı fasilələrə diqqət yetirməklə də burada müəyyən bir planın, siyasətin və mərhələlərin mövcud olduğunu görərik. Mərhələlik aşağıdakı qırğınlarla müşayət edilib:

1. 1804-1828-ci illər hərbi təcavüz;
2. 1905-ci ilə kimi həyata keçirilən müxtəlif istiqamətli və məzmunlu mədəni, inzibati genosid;
3. 1905-1907-ci illərdə asılı vəziyyətdə olan müsəlman əhalisinin kütləvi genosidi;



4. 1918-ci il 31 mart soyqırımı;
5. 1920-ci istilası və hərbi-siyasi genosidi;
6. 1937-ci ilə kimi həyata keçirilən genosid aktları;
7. 1947-1952-ci illərdəki deportasiya;
8. 1988-1993-ci illərdəki deportasiya.

Azərbaycanın türk-müsəlman əhalisinə qarşı etnik təmizləmə və genosid cinayətində Rusiyanın birbaşa növbəti iştirakı 1992-ci ilə təsadüf edir. Bu genosid cinayəti Rusiya Federasiyasının 366-cı alayının birbaşa iştirakı ilə Dağlıq Qarabağda, Xocalı şəhərində baş vermişdir. Bu cinayətə Xankəndində yerləşən 4-cü ordunun kimyəvi müdafiə batalyonu da bu və ya digər formada dəstək vermişdir. 366-cı alayın Xocalıya qarşı cinayətdə istifadə ediləcəyi barədə məlumat öncədən bilinirdi. Bunu bildiyi üçün alayın bir sıra zabitləri hərbi dairə rəhbərliyinə müraciət etsələr də heç bir tədbir görülməmişdi. Alayın erməni hərbi birləşmələrinin tam nəzarətinə keçməsi üçün 23-cü diviziyanın komandanlığı da zəruri tədbirlər görmüşdür. Ümumiyyətlə bu dövrdə SSRİ müdafiə nazirliyinin Zaqafqaziya hərbi dairəsinin komandir müavini, Daşnak partiyasının fəal üzvü, general Oqanov Xocalı cinayətinin əsas ideoloqu və təşkilatçısı olmuşdur. Cinayət işinin materiallarından da bəlli olur ki, Oqanov "Arsax işi" uğrunda ən fəal üzvlərdən olan hərbçi olsa da bu şəxsə qarşı AR hüquq mühafizə orqanları tərəfindən axtarış elanı verilməmlşdir.

"**Xocalı cinayətini törətmiş şəxslərin məsuliyyətə gətirilməsinin əsasları"** adlanan ikinci paraqrafda nəzərə çatdırılır ki, AR ərazisinə Ermənistan tərəfindən təcavüz və Xocalıda baş vermiş (1992) genosid halları zamanı daxili qanunvericilik bu cinayətlərlə mübarizəyə hazır olmamış və yaxud da cinayətkarların məsuliyyətə gətirilməsi üçün əsaslar formalaşdırılmamışdı. Genosid Konvensiyasına yalnız 1996-cı il 31 may Qanunu ilə qoşulmuş və 1999-cu ildə AR özünün yeni CM ilə genosid cinayətinə görə məsuliyyəti müəyyən edən normanı ifadə edir. Qanunvericilik Konvensiyadan fərqli olaraq genosid cinayətini həyata keçirmiş şəxslərin dairəsini də konkretləşdirir.

AR-in hüquq mühafizə orqanları beynəlxalq normalara (Mülki və siyasi hüquqlat haqqında1966-cı il tarixli Beynəlxalq Paktın 15-ci maddəsinin 2-ci hüssəsinə), AR-in Konstitusiyasının 12-ci maddəsinin II hissəsinə ("Bu Konstitusiyada sadalan insan və vətəndaş hüquqları və azadlıqları AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir") və AR-in CM-nin 1.2-ci maddəsinə ("Bu Məcəllə AR-in Konstitusiyasına, beynəlxalq hüququn hamılıqla qıbul edilmiş normalarına və prinsiplərinə əsaslanır") fikrini də yaddan çıxarmamalıdırlar.

Qeyd etdiyimiz kimi Xocalı genosidi üzrə 2007-ci ildə AR Hərbi Prokurorluğu tərəfindən "Xocalı soyqırımı" ilə bağlı AR CM-nin 103-cü maddəsi üzrə başlanmış 64524 saylı cinayət işi davam etməkdədir. Məlum səbəblərdən bu cinayətin AR-in milli məhkəmə orqanları vasitəsilə təhqiqatı qeyri-mümkündür. Ən azından müasir dövrdə bunu milli məhkəmələr vasitəsilə həyata keçirmək real görünmür. Buna görə də yenə də beynəlxalq təşkilatlar vasitəsilə, xüsusən də BMT Baş Məclisinin xətti ilə ad hoc tribunalın təsis edilməsinə çalışmaq lazımdır. BMT Nizamnaməsinin 10 və 11-ci maddələrinə görə Baş Məclis beynəlxalq münasibətlərdə bütün məsələlər üzrə səlahiyyətlidir.

Xocalı soyqırımında genosidin bütün əlamətləri asanlıqla görmək mümkündür. Belə ki, ermənilər əvvəlcədən planlaşdıraraq, milli əlamətinə görə müəyyən qrupun nümayəndələrini tamamilə və ya qismən məhv etmək niyyəti ilə beynəlxalq cinayət törətmişlər. Bu baxımdan, mövcud hüquqi əsaslara istinad edərək Xocalı genosidini törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində Azərbaycan tərəfi intensiv iş aparmaqdadır. Bu istiqamətdə ictimai diplomatiyanın imkanlarından da geniş istifadə olunmaqdadır. Məqsəd erməni qəsbkarlarının Xocalıda törətdikləri vəhşiliklərə Xatın və Qonqmi cinayətləri ilə eyni səviyyədə hüquqi və siyasi qiymətləndirilməsinə nail olmaqdan ibarətdir. AR-in Prezidenti İlham Əliyev cənabları Xocalı soyqırımını XX əsrin ən böyük faciəsi adlandıraraq, onun əsl genosid aktı olduğunu bildirmişdir. Bu baxımdan, ermənilərin Azərbaycan ərazilərində azərbaycanlılara və digər xalqlara qarşı zaman-zaman törətdikləri cinayətlər haqqında həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması olduqca vacibdir. Xocalı soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət verilməsinə nail olmağın ən real və səmərəli yolu bundan ibarətdir.

Xocalı soyqırımının Beynəlxalq Cinayət Məhkəməsinin mühakiməsinə verilməsi BMT TŞ-nin qərarı ilə mümkündür. Belə ki, təcrübədə BMT TŞ tərəfindən belə cinayət hadisələri ilə bağlı tribunalın yaradılması realdır. Məsələn, BMT TŞ tərəfindən keçmiş Yuqoslaviya üçün Beynəlxalq Cinayət Tribunalı yaradılmışdır. Bunun üçün təbii ki, BMT-yə üz ölkələrdə ilkin olaraq Xocalı soyqırımının tanıdılması istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirilməsi və onun ardınca məsələyə BMT TŞ-də baxılmasına nail olunması əsas çıxış yolu kimi nəzərdən keçirilə bilər. Bu istiqamətdə ən miqyaslı iş Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva tərəfindən həyata keçirilməsinə start verilmiş "Xocalıya ədalət"



beynəlxalq məlumat və təşviqat kampaniyası çərçivəsində həyata keçirilməyə başlamışdır. "Xocalıya ədalət" kampaniyası 2008-ci ilin may ayının 8-də elan edilişdir. Kampaniya çərçivəsində dünyanın bir çox ölkələrində Xocalı faciəsi haqqında həqiqətlər ictimaiyyətə çatdırılmaqla dünya birliyinin məsələyə obyektiv münasibət sərgiləməsinə nail olunması istiqamətində təsirli addımlar atılmışdır. Bu kampaniya həm də Ermənistanın işğalçılıq siyasətinin nəticələrinin aradan qaldırılması üçün dünya dövlətlərinə ciddi çağırış xarakteri daşıyır. Bundan başqa, artıq qeyd etdiyimiz kimi, gələcəkdə Xocalı qoyqırımı məsələsinin BMT TŞ-nin vasitəsilə Beynəlxalq Cinayət Mərhkəməsinin mühakiməsinə verilməsi üçün real zəmin formalaşdırılması baxımından da "Xocalıya ədalət" beynəlxalq məlumat və təşviqat kampaniyasının həlledici rolu ola bilər.

**Nəticə** tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmiş, beynəlxalq və dövlətdaxili hüquq üçün onların nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir:**

1. Soyqırımı cinayətinə görə beynəlxalq adət norması və onun daxili hüquqda həyata keçirilməsi // Dirçəliş –XXI əsr, 2013, № 176-177, s. 203-215
2. İnsan qrupunu qəsdən məhv etmək siyasəti // Dirçəliş –XXI əsr, 2013, № 180, s. 99-105
3. Genosidin cinayət kimi tanınması və anlayışı // Nəqliyyat hüququ, 2014, № 3, s.114-123
4. Основания привлечения к ответственности лиц, совершивших Ходжалинское преступление // Право и политология, Кишинев, 2016, № 34, c.21-24
5. Исторический аспект намерения геноцида армянского шовинизма против азербайджанского населения // Закон и жизнь, Кишинев, 2016, № 2, c.51-54
6. Намерение и мотив в преступлении геноцида / Развиток сучасного суспIльства в умовах глобально нестабильностı. Сборник научных работ научно-практической конференции, Одесса, 2016, № 13-14, c.103-108
7. Ad hoc tribunnalar soyqırım cinayətinə görə məsuliyyətin tətbiqinin beynəlxalq məhkəmə mexanizmi kimi / Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, 2016, s. 111-114.

## РЕЗЮМЕ

Представленная на защиту диссертация Насиба Натиг оглы Мамедова по тему «Теоретические и практические проблемы ответственности за преступлении геноцида» по специальности 5603.01-«Международное право, право человека» для получения ученой степени доктора философии юридических наук, является самостоятельный и завершенный научно-исследовательской работой, отражающей в себе научную новизну, а также определяющей юридическую ответственность за преступление геноцида, в том числе имеющим важное значение в исследовании вопросов международных норм и правовых норм Азербайджанской Республики. Диссертационная работа основывается на сравнительном анализе и различных подходов законнодательств и юридической литературы различных государств, включая законодательства Азербайджанской Республики и на международно-договорной и судебной практиках. Диссертация состоит из введения, четырех глав, заключения и списка литературы.

Во введении основана актуальность темы, цели и задачи исследования, определены методологическая и теоретическая основы, научная новизна, положения, выдвинутые на защиту, объясняется практического значимость работы, дается информация об апробации исследования и структуре работы.

Первая глава исследования, называемая «Преступление-геноцид и его свойства» состоит из пяти параграфов. Даётся понятия преступления геноцида, определяется намерения совершения и мотивы этого преступления, в том числе исследуются вопросы участия государства в совершением геноцида.

Вторая глава, состоящая из двух параграфов, называется «Особенности международных норм против геноцида». В этой главе исследуются правовые основы признания геноцида как преступления, а также особенности правовой имплементации норм международного права, связанных с этим преступлениям.

Третья глава называется «Механизмы Международного Суда и ответственность за совершенный геноцид» и состоит из двух параграфов. В этой главе исследуются общие особенности для Всеобщей ad hoc трибуналов, юрисдикции Международного Уголовного Суда по геноциду.

Четвертая глава называется «Намерения Армении в агрессии против Азербайджана в совершении геноцида» и состоит из двух параграфов. В этой главе исследуются исторические аспекты в геноциде против турко-мусульманского населения русско-армянскими шовинистами, а также основы привлечения к ответственности лиц, совершивших и участвовавших в Ходжалинском геноциде.

В заключении диссертации приводятся научные итоги работы, даются значимые предложения, которые могут быть применены в международном праве. А также имеют научно-практическое значение в правоведении государств.



## SUMMARY

Nasib Natig Mammadov's thesis of "Theoretical and practical problems of the responsibility regarding the Crime of Genocide" for getting the degree of PhD in Law in the speciality of 5603.01- "International Law; human rights" is independent, creative and completed research work, and very important for identifying legal liability for the crime of genocide as well for the analyse of the issues of interaction of internal legal normatives of AR and international regarding this by reflecting absolutely scientific provisions. The thesis is based on the practices of extended international agreement and court, comparative analyse of idea variety existing in legal literature and legislation of different countries as well of Azerbaijan. The thesis consists of introduction, 4 chapters, conslusion and the list of used literature.

In the introduction of the research work the actuality of the subject is substantiated; the aims and functions of the research and its methodological and theoretical bases are identified; the scientific innovation of the work, the new scientific provisions that presented for the defence and their practical importance is explained; approbation of the results of researches and about the structure of the research is reported.

The first chapter of the research work is named "The crime of genocide and its signs". Here is spoken about the concept of the crime of the genocide, the motive and the aim of this crime is identified, also participation issues of the state in the commitment of the genocide is analysed.

The second chapter of the thesis is named "Features of the legal normatives against the crime of genocide" consists of two paragraphs. The legal basis of the recognition of the genocide as a crime, the features of the national legal implemetation of international legal normatives regarding this crime is analysed in this chapter.

The third chapter is named "International court mechanisms in the application of responsibility for the crime of genocide". The general features for all ad-hoc tribunals, the jurisdiction for the crime of the genocide of International Crime Court are explored here.

The fourth chapter is named "Genocide purpose in the international crimes during the aggression against Azerbaijanis committed by Armenians" consists of two paragraphs. Historical aspects of the genocide purpose of armenian-russian chauvinism against turkish-azeri population, the basis of the responsibility those people who participated in the commitment of Khojali genocide are analysed.

In the conclusion of the thesis, important offers and results explored by researches are noted, their theoretical-practical importance for international and intergovernmental law are expressed.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**НАСИР НАТИГ оглы МАМЕДОВ**

# ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ПРОБЛЕМЫ ОТВЕТСТВЕННОСТИ ЗА ПРЕСТУПЛЕНИЯ ГЕНОЦИДА

**Специальность: 5603.01 - «Международное право; права человека»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по праву**

**БАКУ – 2016**